İş №2(006)-7755/2016

Azərbaycan Respublikası adından
QƏTNAMƏ
Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi

Hakim Hüseynov Pərviz Aktiv oğlunun sədrliyi, Ağazadə Nərmin Calal qızının katibliyi, iddiaçının nümayəndəsi Səfərov İlham Nizami oğlunun, cavabdeh Quliyeva Arzu Məmməd qızının iştirakı ilə, iddiaçı «ABC Telecom» MMC-nin cavabdeh Quliyeva Arzu Məmməd qızına qarşı «borc» tələbinə dair dair iddia ərizəsi üzrə mülki işə **10 noyabr 2016-cı il tarixdə** Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin inzibati binasında açıq məhkəmə iclasında baxaraq, məhkəmə

MÜƏYYƏN ETDİ:

Kreditor «ABC Telecom» MMC ərizəsi ilə məhkəməyə müraciət edərək, borclu Quliyeva Arzu Məmməd qızından «ABC Telecom» MMC-nin xeyrinə ümumlikdə 301,67 ABŞ dolları borc, 20 manat məbləğində ödənilmiş dövlət rüsumunun tutulması barədə məhkəmə əmrinin verilməsini məhkəmədən xahiş etmişdir.

Ərizə onunla əsaslandırılmışdır ki, borclu «ABC Telecom» MMC ilə 07.02.2015-ci il tarixli müqaviləsinə əsasən LG LED markalı televizor almış və nəticədə 301,67 ABŞ dolları borc yaranmışdır. Müqavilənin şərtlərinə əsasən borclu, alqı-satqı qiyməti 1209,79 ABŞ dolları (6 ay x 201,42 ABŞ dolları + 1,27 ABŞ dolları ilkin ödəniş) olan LG LED markalı televizor üçün ümumilikdə nəticədə 301,67 ABŞ dolları ödənilməmiş məbləğ hesablanmışdır. Borclunun cəmi ödədiyi məbləğ 908,12 ABŞ dolları təşkil edir. Məbləğlər Azərbaycan Mərkəzi Bankının bu günə olan AZN/ABŞ dolları məzənnəsi ilə hesablanır. Ödənişlər Azərbaycan Mərkəzi Bankının ödəniş gününə olan AZN/ABŞ dolları məzənnəsinə uyğun yalnız Azərbaycan manatı ilə həyata keçirilir. Göstərilənləri nəzərə alaraq borclu Quliyeva Arzu Məmməd qızından «ABC Telecom» MMC-nin xeyrinə 301,67 ABŞ dolları borcun və ödənilmiş 20 manat dövlət rüsumunun tutulması barədə məhkəmə əmrinin verilməsi məhkəmədən xahiş edilmişdir.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 09 avqust 2016-cı il tarixli 2(006)-7755/2016 saylı əmri ilə borclu Quliyeva Arzu Məmməd qızından 301,67 ABŞ dolları məbləğində pul tutulduğu anda Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş ABŞ dollarının manata məzənnəsi nəzərə alınmaqla manat hesabı ilə və ödənilmiş dövlət rüsumunun əvəzi olaraq 20 manat məbləğində pulun alınaraq kreditor «ABC Telecom» MMC-yə verilməsi əmr edilmişdir.

Borclu Quliyeva Arzu Məmməd qızı həmin məhkəmə əmrinin ləğv edilməsi üçün etirazla məhkəməyə müraciət etmiş, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 20 sentyabr 2016-cı il tarixli 2(006)-7755/2016 saylı qərardadı ilə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 09 avqust 2016-cı il tarixli 2(006)-7755/2016 saylı məhkəmə əmrinin ləğv edilməsi, materialların iddia icraatına keçirilməsi qərara alınmışdır.

Məhkəmə baxışı zamanı iddiaçının nümayəndəsi iddia tələbinin həcminin artırılması barədə ərizə ilə məhkəməyə müraciət edərək, LG LED markalı televizor almış üçün ümumilikdə ödənilməmiş əsas borc 506 manat (bugünə olan məzənnəyə əsasən 301,67 ABŞ dolları x 1,6782 manat/ABŞ dolları=506 manat), dəbbə pulu 360 manat (yəni 1 manat x 12 ay x 30 gün), dövlət rüsumu 20 manat, cəmi 886 manatın borclu Quliyeva Arzu Məmməd qızından alınaraq «ABC Telecom» MMC-yə ödənilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasında iştirak edən iddiaçının nümayəndəsi Səfərov İlham Nizami oğlu iddia tələbinə uyğun izahat verərək iddianın təmin edilməsi barədə qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasında iştirak edən cavabdeh Quliyeva Arzu Məmməd qızı iddia tələbini qəbul etməyərək izahatında göstərmişdir ki, «ABC Telecom» MMC ilə onun arasında bağlanmış 07.02.2015-ci il tarixli müqaviləyə əsasən LG LED markalı televizor almışdır. Ona satılan televizorun qiyməti mağazada satışda və müqavilədə manatla olmuş və o, borcunu manatla ödəmişdir. Alqı-satqı müqaviləsi manatla bağlanmış, 6 ay olmaqla borcun hissə-hissə ödənilməsi nəzərdə tutulmuş, o da hər ay ödəniş etməklə bütün borc məbləğini ödəmişdir, bu barədə qəbzlər də vardır. Hazırda borcun dollarla tələb edilməsi qanunsuzdur, bu, onun tərəfindən edilmiş ödənişlərin nəzərə alınmamaqla əlavə pul tələb edilməsini göstərir. O, bütün borclarını artıqlaması ilə ödəməklə hazırda iddiaçıya heç bir borcu yoxdur. Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddsinə əsasən Azərbaycan Respublikasmında pul vahidi manatdır və Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 14 may 2015-ci il tarixli qərarına əsasən alqı-satqı, icarə, podrat və s. pul öhdəliklərindən fərqli olaraq, kredit və ya əmanət müqavilələri üzrə təqdin edilmiş pul (manat və ya xarici valyuta) ödəniş vasitəsi kimi deyil, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinin "ödəniş vasitəsi" müddəasında görülmüş is, göstərilmiş xidmət, satılmış mal və s. müqabilində ödənişin həyata keçirilməsi, habelə icbari ödənişlərin (vergi, sosial sığorta və s.) aparılması hallarını nəzərdə tutur. O, Azərbaycan Respublikasının vətəndaşıdır, ödənişlər manatla olmalıdır. «ABC Telecom» MMC-nin satış mağazalarında, reklamlarında və müqavilələrində satılan malların qiyməti manatla göstərilir, o da hər bir vətəndaş kimi dəyərini ödəməklə televizor almışdır. Lakin ondan xarici ölkənin valyutası ilə əlavə pul tələb edilməsi həm Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ziddir, həm də bir istehlakçı kimi onun aldıdılmasıdır. Göstərilənləri nəzərə alaraq iddianın rədd edilməsini məhkəmədən xahiş etmişdir.

Məhkəmə iş materiallarını araşdırıb, proses iştirakçılarının izahatını dinləyib, toplanmış sübutlara hüquqi qiymət verərək hesab edir ki, iddia təmin olunmamalıdır.

İş materiallarında olan «ABC Telecom» Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Quliyeva Arzu Məmməd qızı arasında bağlanmış 6E19531 saylı 07.02.2015-ci il tarixli müqaviləyə əsasən qiyməti 949 manat olan LG LED markalı televizor Quliyeva Arzu Məmməd qızının istifadəsinə verilmiş, müqavilədə alınan malın dəyərinin 6 ay ərzində hər ay 201,42 ABŞ dolları olmaqla hissə-hissə ödənilməsi nəzərdə tutulmuşdur. Müqavilənin 2.1-ci bəndində satılan malın dəyəri 949 manat göstərilmişdir. Həmin bənddə qeyd olunur ki, bu bənddə manatla göstərilən məbləğlər şərtidir və AZN/ABŞ dolları məzənnəsi ilə - 0,7844 hesablanıb. Əşyaların qiymətlərinin toplam məbləği 1209,79 ABŞ dollarına bərabərdir. Ödənişlər Azərbaycan Milli Bankının ödəniş edilən gününə olan AZN/ABŞ dolları məzənnəsinə uyğun, yalnız Azərbaycan manatı ilə həyata keçirilir.

İş materiallarına əlavə olunmuş 27 iyul 2016-cı il tarixli maliyyə arayışından görünür ki, Quliyeva Arzu Məmməd qızının 07.02.2015-ci il tarixli saylı müqaviləyə əsasən 908,12 ABŞ dolları ödəmiş, 301,67 ABŞ dolları borcu vardır.

İş materaillarında olan çıxarışdan görünür ki, Quliyeva Arzu Məmməd qızı 07.02.2015-ci il tarixli müqvilə üzrə «ABC Telecom» MMC-yə 06.03.2015-ci il tarixdə 212 manat, 09.04.2015-ci il tarixdə 212 manat, 11.05.2015-ci il tarixdə 211 manat, 08.06.2015-ci il tarixdə 170 manat, 09.07.2015-ci il tarixdə 170 manat və 08.08.2015-ci il tarixdə 50 manat ödəməklə, cəmi 1025 manat borc ödəmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin:

386.1-ci maddəsinə əsasən öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır;

442-ci maddəsinə əsasən öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə

qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür;

445.2.-ci maddəsinə əsasən öhdəliyin onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra edilməməsi, icra müdəti çatanadək kreditorun etdiyi xəbərdarlıqdan sonra da icra edilməməsi borclunun icranı gecikdirməsi sayılır;

600.1-ci maddəsinə əsasən alqı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə bu Məcəllənin 427-ci maddəsinə uyğun müəyyənləşdirilmiş müddətdə həyata keçirməlidir;

600.4-cü maddəsinə əsasən əşyanı təhvil almış alıcı onu alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə satıcı verilmiş əşyanın ödənilməsini və ya ödənilməmiş malın qaytarılmasını tələb edə bilər;

601.1-ci maddəsinə əsasən əşyanın nisyə satılması haqqında müqavilədə onun hissə-hissə ödənilməsi nəzərdə tutula bilər.

Məhkəmə baxışında tədqiq olunmuş sübutlar əsasında müəyyən edilmişdir ki, «ABC Telecom» Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Quliyeva Arzu Məmməd qızı arasında bağlanmış 6E19531 saylı 07.02.2015-ci il tarixli müqaviləyə əsasən qiyməti 949 manat olan LG LED markalı televizor Quliyeva Arzu Məmməd qızının istifadəsinə verilmiş, müqavilədə alınan malın dəyərinin 6 ay ərzində hər ay 201,42 ABŞ dolları olmaqla hissə-hissə ödənilməsi nəzərdə tutulmuşdur. Müqavilənin 2.1-ci bəndində satılan malın dəyəri 949 manat göstərilmişdir. Həmin bənddə qeyd olunur ki, bu bənddə manatla göstərilən məbləğlər şərtidir və AZN/ABŞ dolları məzənnəsi ilə - 0,7844 hesablanıb. Əşyaların qiymətlərinin toplam məbləği 1209,79 ABŞ dollarına bərabərdir. Ödənişlər Azərbaycan Milli Bankının ödəniş edilən gününə olan AZN/ABŞ dolları məzənnəsinə uyğun, yalnız Azərbaycan manatı ilə həyata keçirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.1, 439.2 və 439.7-ci maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması və həmin maddələrin bəzi müddəalarının şərh edilməsinə dair» 14 may 2015-ci il tarixli qərarında qeyd olunur ki, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinin "ödəniş vasitəsi" müddəası görülmüş iş, göstərilmiş xidmət, satılmış mal və s. müqabilində ödənişin həyata keçirilməsi, habelə icbari ödənişlərin (vergi, sosial sığorta və s.) aparılması hallarını nəzərdə tutur.

Beləliklə, müqavilədə satılan malın dəyəri 949 manat göstərilmiş, cavabdeh tərəfindən isə 1025 manat ödənilmişdir. Göründüyü kimi, cavabdeh müqavilə üzrə əşyanın dəyərini tam ödəmişdir. Lakin iddiaçı hazırda cavabdehdən əlavə olaraq 506 manat tələb edir. Məhkəmə qeyd edir ki, müqavilədə satılan malın dəyərinin manatın ABŞ dollarına məzənnəsi nəzərə alınmaqla ABŞ dolları ilə hesablanıb və bu gün manatın ABŞ dollarına yeni məzənnəsinə uyğun olaraq tələb edilməsi qanunvericiliyin yuxarıda qeyd olunan tələblərinə ziddir. Məhkəmə hesab edir ki, satılan əşyanın dəyərinin manatın ABŞ dollarına məzənnəsinə uyğunlaşdıraraq qalıq borcun ABŞ dollarının manata məzənnəsinə uyğun tələb edilməsi, eyni zamanda satılan əşyanın satış dəyərindən artıq məbləğin cavabdehdən tələb edilməsi əsassız və qanunsuzdur. Ona görə də məhkəmə hesab edir ki, iddia tələbi əsassızdır və təmin edilməməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin:

14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir;

77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir;

119.1-ci maddəsinə əsasən məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir;

217.4-cü maddəsinə müvafiq olaraq məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Beləliklə, məhkəmə iş materiallarında olan sübutlara məcmu halda qiymət verərək hesab edir ki, iddiaçı «ABC Telecom» MMC-nin cavabdeh Quliyeva Arzu Məmməd qızına qarşı «borc» tələbinə dair iddiası təmin edilməməli, iş üzrə ödənilmiş dövlət rüsumu iddiaçıya aid edilməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 216-220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

QƏT ETDİ:

İddiaçı «ABC Telecom» MMC-nin cavabdeh Quliyeva Arzu Məmməd qızına qarşı «borc» tələbinə dair iddiası təmin edilməsin.

İş üzrə ödənilmiş dövlət rüsumu iddiaçıya aid edilsin.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 1 (bir) ay müddətində Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi vasitəsi ilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza
Əsli ilə düzdür
Hakim Pərviz Hüseynov